**Konsuel Selin**

# DÜNYA ÇEMPİONATLARI: 1930-2026




QANUN NƏŞRİYYATI

Bu kitab uşaqlara dünya çempionatları tarixinə, futbolun sirli və sehrli aləminə unudulmaz səyahət vəd edir. Kitabda 22 Dünya Kubokunun yaddaqalan anları, maraqlı məqamları sadə və anlaşıqlı dildə təsvir olunur. Oxuyacağınız kitab təkcə futbolçulardan, Dünya Kubokundan və qələbələrdən bəhs etmir. O bizə komanda ruhunun, dostluğun, əzmkarlığın, fədakarlığın və vətənseverliyin gücünü də göstərir.

**Konsuel Selin**
**DÜNYA ÇEMPİONATLARI: 1930-2026**

Janr: futbol
Yaş qrupu: 12+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 160

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Redaktor: | Qan Turalı |
| Korrektor: | Əyyar Tahir |
| Mətn dizaynı: | Günay Seyidova |
| Qapaq dizaynı: | Kənan Eynullayev |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-056-8

© Konsuel Selin, 2026
© Qanun Nəşriyyatı, 2026

**Mündəricat**


ÇM-1930 Futbolun ilk böyük macərası .......................... 6
ÇM-1934 Tarixin ən gərgin mundialı ............................ 12
ÇM-1938 Müharibədən əvvəlki sonuncu çempionat ..... 18
ÇM-1950 Maracanazo – Braziliyalıların milli faciəsi ... 24
ÇM-1958 Kralın doğuluşu ............................................ 32
ÇM-1962 "Qarrinça çempionatı" .................................. 38
ÇM-1966 Finalı və azərbaycanlı hakim ....................... 44
ÇM-1970 Əfsanə geri qayıdır ....................................... 50
ÇM-1974 Narıncı arzular və alman intizamı ................ 58
ÇM-1978 Futbol və çətin zamanlar ............................... 66
ÇM-1982 Meydandakı portağal və dəvənin macərası ... 74
ÇM-1986 Meydançanın balaca sehrbazı:
Maradona və tanrının əli ................................................ 80
ÇM-1990 Usta yanından dünya çempionluğuna:
Dəmir general ................................................................. 86
ÇM-1994 Romarionun rəqsi və Baccionun kədəri ........ 96
ÇM-1998 Eyfelin kölgəsində sehrli yay ....................... 102
ÇM-2002 Asiya sehrbazlığı .......................................... 110
ÇM-2006 "Dostluq zamanı" və unudulmaz
kəllə zərbəsi .................................................................. 118
ÇM-2010 Afrika ritmləri: Vuvuzelalar və
İspaniyanın "qızıl" dövrü .............................................. 124
ÇM-2014 Braziliya karnavalı: "Fuleko"nun rəqsi
və Almaniyanın polad gücü .......................................... 132
ÇM-2018 Möcüzələr və böyük dəyişikliklər turniri ...... 138
ÇM-2022 Səhrada futbol möcüzəsi .............................. 144
ÇM-2026 Üç ölkə, bir böyük bayram! .......................... 154

# ÇM-1930
# FUTBOLUN İLK BÖYÜK MACƏRASI



Uşaqlar, təsəvvür edin ki, o vaxt nə təyyarələr bu qədər sürətli idi, nə də televizor var idi. Heç futbol da indiki kimi məşhur deyildi. Amma bir gün belə bir xəbər yayıldı:

– Bütün ölkələrin komandaları arasında çempionat keçiriləcək və ən güclü komanda seçiləcək.

Bu, ilk dünya çempionatı olacaqdı. Bu yarışı keçirmək istəyən ölkələr çox idi. Uruqvay və İtaliya də onların arasında idi.

Uruqvayın təmsilçiləri dedilər:

– Biz elə bir stadion tikəcəyik ki, oyunları izləmək istəyən bütün tamaşaçılar oraya sığacaq.

Təklif qəbul edildi. Çempionat Uruqvayda keçiriləcəkdi.



## Gəmi ilə gələn futbolçular

Avropadan gedən komandalar (Fransa, Belçika, Ruminiya və Yuqoslaviya) Uruqvaya çatmaq üçün düz iki həftə gəmi ilə okeanı keçməli oldular! Futbolçular məşqlərini gəminin göyərtəsində, topları okeana düşürməməyə çalışaraq edirdilər.

## Güclü kapitan Xose Nasazzi



Xose Nasazzi Uruqvay komandasının kapitanı idi. Xose həm fiziki cəhətdən, həm də xaraktercə çox güclü idi. Onun bu qədər güclü olmasının bir səbəbi vardı: o, tikintidə işləyir, daş daşıyır, kərpic düzür, divar hörürdü.

Bu işlər 8–10 saat ayaqda qalmağı tələb edirdi. Zaman keçdikcə bu onun üçün adi hala çevrildi, fiziki gücünü və dözümlülüyünü daha da artırdı.

O vaxt futbolçu olmaq tam peşə sayılmırdı. Buna görə futbolçular başqa işlərdə də çalışır, ağır fiziki işlər görürdülər.

Bugünkü futbolçular daha planlı və sistemli məşq edirlər. Amma o dövrün oyunçularının üstünlüyü başqa idi: onlar real həyatda qazandıqları gücü və dözümü oyuna gətirirdilər.

## Meydanda “divar”

Meydanda isə Lourens, sanki divar kimi idi. Rəqiblər onu keçə bilmirdi, çox güclü müdafiə olunurdu, 90 dəqiqə yorulmadan oynayırdı. Komandası ona güvənirdi.

Beləcə, çempionat başladı. O dövrün oyunları bir az fərqli idi. Futbolçular daha çox fiziki gücə arxalanırdılar, oyunlar bəzən çox sərt keçirdi. Meydançalar indiki kimi ideal deyildi. Hakim qərarları isə bəzən mübahisəli olurdu. Amma buna baxmayaraq, futbolçular böyük həvəslə oynayırdı.

## Nəhayət, ən həyəcanlı gün gəldi – final oyunu!

Meydanda iki güclü komanda vardı: Uruqvay və Argentina. Oyun başlamazdan əvvəl komandaların arasında mübahisə oldu.

Hər iki komanda dedi:

– Biz öz topumuzla oynamaq istəyirik!

Bir az mübahisə etdilər. Sonda belə qərara gəldilər: birinci hissə Argentinanın topu ilə, ikinci hissə Uruqvayın topu ilə oynanacaq.

Oyun başladı. İlk hissədə Argentina daha yaxşı oynadı və hesabda önə keçdi.

Komanda yoldaşları kapitan Xose Nasazziyə baxdı. Nasazzi bilirdi ki, futbolda özünəinam və güclü iradə çox vacibdir. Həyatda çətinliklər qarşısında sınmayan insanlar necə qalib gəlirsə, komandalar arasında da ən

dözümlü və iradəli olan qalib gəlir. Buna görə o, komanda yoldaşlarına dedi:

– Ruhdan düşməyin, qələbəyə köklənin.

İkinci hissədə hər şey dəyişdi. Uruqvay daha güclü oynamağa başladı. Onlar sürətli hücumlar edir, bir-birinin ardınca qollar vurdular.

Oyun 4:2 hesabı ilə bitdi.

Uruqvay qalib gəldi. Beləcə, Nasazzi və dostları tarix yazdılar.

***Əsas faktlar:***

*Turnirdə cəmi 13 komanda iştirak edib.*

*Oyunlar yalnız bir şəhərdə – paytaxt Montevideoda keçirilib.*

*Final oyunu məşhur Estadio Sentenario stadionunda baş tutub.*

*Çempion – Uruqvay (Ev sahibi üstünlüyü və "Hücum maşını" ilə futbol tarixinin ilk qızıl ulduzunu qazanan "Səmavi mavilər").*

*İkinci yer – Argentina (Stabile-nin qolları ilə finala qədər fırtına kimi əsən, lakin həlledici matçda qonşusuna boyun əyən "Ağ-göy rəngli tanqoçular").*

*Üçüncü yer – ABŞ (Turnirin sürpriz komandası olan və futbol tarixindəki ən böyük uğuruna imza atan "Ulduzlu-zolaqlı yankeeslər").*